# "Məharət-2024"ün əsas məqsədi müttəfiq qüvvələrin strateji tərəfdaşlığını inkişaf etdirməkdir

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanmış 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında keçirilən "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təliminin açılış mərasimi olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, açılış mərasimində hər iki ölkənin



ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan və Özbəkistan respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbiri açıq elan edən general-mayor Vüqar Əliverdiyev bildirib ki, təlim hər iki ölkənin hərbi əməkdaşlığını gücləndirmək və ortaq regional təhlükəsizlik probleminin həllinə birlikdə yanaşmaq məqsədini daşıyan əhəmiyyətli bir addımdır.

Mərasimdə qeyd olunub ki, "Məharət-2024" təliminin əsas məqsədi müttəfiq qüvvələrin koordinasiyasını və effektivliyini artırmaq, strateji tərəfdaşlığımızı inkişaf etdirməkdir.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 2 oktyabr (№ 215).- S.5.